«TƏSDİQ EDİLMİŞDİR»
Azərbaycan Respublikasının Prezidenti
yanında Qiymətli Kağızlar üzrə Dövlət
Komitəsi Əmr 167
«29» sentyabr 2000-cı il
Sədr _______________ H. Babayev
(30 sentyabr 2005-ci il tarixli 166 №li
Əmrin redaksiyasında)

# Dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılan səhmdar cəmiyyətlərinin səhmlərinin buraxılışı, qeydiyyatı və tədavülü Qaydaları

## I.Ümumi müddəalar.

1.1 Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, 12 iyul 1994-cü il tarixli «Səhmdar cəmiyyəti haqqında», 14 iyul 1998-ci il tarixli «Qiymətli kağızlar haqqında», 16 may 2000-ci il tarixli «Dövlət əmlakının özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikasının Qanunlarına, Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1999-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamə»yə və 10 avqust 2000-ci il tarixli 383 saylı Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin ll Dövlət Proqramı»na uyğun olaraq hazırlanmış və dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılan səhmdar cəmiyyətlərinin səhmlərinin (bundan sonra – «səhm») buraxılışını, qeydiyyatını və tədavülünü tənzimləyir.

## II.Səhmlərin buraxılışı və qeydiyyatı.

2.1 Səhmdar cəmiyyəti (bundan sonra – «emitent») yaradılan zaman səhmlərini yalnız sənədsiz adi adlı, nominal dəyəri Azərbaycan Respublikasının milli valyutasında ifadə olunmuş formada buraxa bilər.
2.2 Emitent səhmlərinin buraxılması və yerləşdirilməsi hüququnu səhm buraxılışının dövlət qeydiyyatından keçdiyi andan əldə edir.
2.3 Səhm buraxılışının dövlət qeydiyyatı emissiya prospektinin (özəlləşdirmə planının) qeydiyyatı ilə müşayiət olunur.
2.4 Səhm buraxılışının dövlət qeydiyyatı Azərbaycan Respublikası Dövlət Əmlakı Nazirliyinin (bundan sonra – «DƏN») təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (bundan sonra – «QKDK») tərəfindən həyata keçirilir.
2.5 Səhmlərin dövlət qeydiyyatı üçün DƏN QKDK-ya aşağıdakı sənədləri təqdim edir:
2.5.1 səhmlərin dövlət qeydiyyatına alınması barədə məktub;
2.5.2 emissiya prospekti (özəlləşdirmə planı) - 2 (iki) nüsxədə;
2.5.3 emitentin nizamnaməsinin notarial qaydada təsdiq olunmuş surəti;

2.5.4 emitentin hüquqi şəxs kimi dövlət qeydiyyatı haqqında Şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surəti;
2.5.5 dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsi barədə DƏN-in qərarının (sərəncamın) surəti;
2.6 Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsi barədə qərarda (sərəncamda) aşağıdakılar əks olunmalıdır:
2.6.1 Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsi barədə qərarı (sərəncamı) qəbul etmiş səlahiyyətli orqanın adı və qərarın (sərancamın) qəbul edilmə tarixi;
2.6.2 emitentin tam adı və hüquqi ünvanı;
2.6.3 bir səhmin nominal dəyəri;
2.6.4 səhmlərin ümumi sayı;
2.6.5 səhmlərin növü;
2.6.6 səhmlərin yerləşdirilməsi qaydaları;
2.6.7 səhm sahibinin bir səhmlə təsbit edilmiş hüqüqları və emitentin səhm sahibləri qarşısında olan öhdəlikləri.
2.7 Qərarda (sərəncamda) zəruri hesab edilən digər məlumat əks oluna bilər.
2.8 Emissiya prospektində (özəlləşdirmə planında) aşağıdakı məlumatlar əks olunmalıdır:
2.8.1 emitentin tam və qısaldılmış adı;
2.8.2 emitentin hüquqi ünvanı;
2.8.3 emitentin hüquqi şəxs kimi dövlət qeydiyyatı haqqında Şəhadətnamənin nömrəsi və tarixi;
2.8.4 emitentin fəaliyyət növü;
2.8.5 səhmlərin buraxılışı haqqında qərarın (sərəncamın) nömrəsi və tarixi;
2.8.6 səhm buraxılışının ümumi məbləği;
2.8.7 səhmlərin növü;
2.8.8 səhmlərin ümumi sayı;
2.8.9 bir səhmin nominal dəyəri;
2.8.10 səhm sahibinin bir səhmlə təsbit edilmiş hüqüqları və emitentin səhm sahibləri qarşısında olan öhdəlikləri.
2.8.11 səhm sahiblərinin uçotunu həyata keçirəcək qiymətli kağızlar bazarının peşəkar iştirakçısının adı və hüquqi ünvanı;
2.8.12 səhmlərin satışı qaydası və üsulu;
2.8.13 səhmlərin satış müddəti;
2.8.14 səhmlərin yerləşdirilməsində iştirak etməyə cəlb edilən qiymətli kağızlar bazarının peşəkar iştirakçıları (oldugda) haqqında məlumat (adı, hüquqi ünvanı, səhmlərin yerləşdirilməsi zamanı yerinə yetirdiyi vəzifələr);
2.8.15 emitentin bütün filiallarının, nümayəndəliklərinin və nizamnamə fondlarında payı olan müəssisələrin tam adları və hüquqi ünvanları;
2.8.16 emitentin toplu maliyyə hesabatı və son hesabat dövrü üçün mühasibat balansı.
2.9 Emissiya prospektində zəruri hesab edilən digər məlumat əks oluna bilər.
2.10 Emissiya prospektinin səhifələri tikilir, nömrələnir, DƏN-nin səlahiyyətli şəxsi tərəfindən imzalanır və DƏN-nin möhürü ilə təsdiq edilir.

2.11 Səhmlərin yerləşdirilməsi başlayana qədər emitent emissiya prospektində olan məlumatların kütləvi informasiya vasitələri ilə açıqlanmasını təmin etməlidir.
2.12 QKDK səhm buraxılışının dövlət qeydiyyatını (və ya ondan əsaslandırılmış imtinanı) bu Qaydaların 2.5 bəndində göstərilən sənədlər təqdim edildiyi tarixdən etibarən 15 (on beş) gün ərzində həyata keçirir və bu barədə DƏN-ə yazılı məlumat verir.
2.13 Səhm buraxılışının qeydə alınmasından imtina edilməsi üçün əsaslar aşağıdakılardır:
2.13.1 təqdim olunmuş sənədlərin və onlarda olan məlumatların məzmununun bu Qaydaların tələblərinə uyğun olmaması;
2.13.2 emissiya prospektinə və ya səhmlərin qeydiyyatı üçün əsas olan digər sənədlərə qeyri-dürüst və ya təhrif olunmuş məlumatların daxil edilməsi;
2.13.3 Azərbaycan Respublikası qanunvericiliyinin digər tələblərinin pozulması.
2.14 Səhm buraxılışının qeydiyyata alınmasından imtina edilməsi haqqında qərardan məhkəmə qaydasında şikayət verilə bilər.
2.15 QKDK səhm buraxılışının qeydə alınmasından imtina etdikdə səhmlərin dövlət qeydiyyatı üçün təqdim olunmuş sənədlər geri qaytarılmır.
2.16 **ÇIXARILIB**
2.17 Səhm buraxılışı dövlət qeydiyyatına alındıqda QKDK tərəfindən qiymətli kağızlar buraxılışının dövlət qeydiyyatı haqqında şəhadətnamə verilir.

## III. Səhmlərin tədavülü.

3.1 Səhmlərin alqı-satqısı və digər qaydada özgəninkiləşdirilməsi mövcud qanunvericilikdə qiymətli kağızlar üçün nəzərdə tutulmuş qaydada həyata keçirilir.
3.2 Səhmdar cəmiyyətin səhmlərinin satışına dair yekun məlumatlar DƏN tərəfindən Milli Depozit Mərkəzinə təqdim edilir. Milli Depozit Mərkəzi təqdim olunmuş sənədlər əsasında səhmdarların reyestrini formalaşdırır və səhmdarların səhmlər üzərində mülkiyyət hüququnun təsdiqinə dair müvafiq sənədlərin verilməsini təmin edir.

## IV.Məsuliyyət.

Bu Qaydaların müddəalarına riayət etməyən şəxslər mövcüd qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.

## V.Yekun müddəalar.

Bu Qaydalar imzalandığı gündən qüvvəyə minir.